*Novruz Əmir oğlu RƏHİMOV*
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*

# QİDA MƏHSULLARI İSTEHSALININ EKOLOJİ, İQTİSADİ PROBLEMLƏRİ

**Xülasə**

Qida sənayesi aqrar ərzaq kompleksinin ən mühüm tərkib hissəsini təşkil etməklə, əhalinin qida məhsullarına olan tələbatının ödənilməsində önəmli rol oynayır. Qida məhsullarının istehsalı üçün ən mühüm amillərdən biri kənd təsərrüfatı xammalıdır. Bu baxımdan qida məhsullarının istehsalı prosesində dövlətin strateji iqtisadi maraqlarının qorunması, daha doğrusu, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi mühüm şərtlərdən biridir. Bu şərtləri labüd edən ən mühüm cəhət ondan ibarətdir ki, qida məhsullarının istehsalı prosesi yerli kənd təsərrüfatı xammalına əsaslanmalıdır. Yerli kənd təsərrüfatı xammalının istehsal həcmi isə elə bir səviyyədə olmalıdır ki, həm əhalinin tələbatını ödəmək iqtidarında olsun, həm də sənayenin kənd təsərrüfatı xammalına olan ehtiyacları daxili istehsal hesabına təmin edilsin. Qida məhsulları istehsalının səciyyəvi cəhətləri bu sənaye sahəsinin ekoloji və iqtisadi baxımdan özünəməxsus problemlərlə üzləşməsinə gətirib çıxarır. Qida məhsulları istehsalının ekoloji problemləri daha çox ekoloji təmiz qida məhsullarının istehsalını özündə əks etdirir ki, bu da bu sahənin kimyəvi, fiziki və digər zərərli təzahürlərdən kənarda olmasını nəzərdə tutur. Qida məhsullarının istehsalının iqtisadi problemləri isə onun rəqabətqabilliyyətli olmasını, müqayisəli üstünlüklərini, daxili və xarici bazarda yüksək keyfiyyətli olmasını və s. özündə əks etdirir. Bu baxımdan sözü gedən məqalədə qida məhsulları istehsalının ekoloji və iqtisadi məsələləri öz əksini tapır.

***Açar sözlər: qida sənayesi, ekoloji problemlər, iqtisadi problemlər, rəqabət qabiliyyəti, müqayisəli üstünlüklər, ərzaq təminatı.***

***

Emal sənayesi kənd təsərrüfatı xammalı əsasında fəaliyyət göstərməklə əhalinin gündəlik istehlak tələbatının ödənilməsinə, o cümlədən qida məhsullarına olan tələbatın ödənilməsinə xidmət edir. Qida sənayesi ərzaq təhlükəsizliyinin təmin edilməsinin də maddi əsasını təşkil edir. Kənd təsərrüfatı ilə yanaşı qida məhsulları sektoru əhalinin ehtiyaclarının qarşılanmasında və eləcə də kənd təsərrüfatı məhsullarının satış kanallarından biri kimi çıxış etməklə sahənin davamlı inkişafının təmin edilməsinə xidmət edir. Qida məhsullarının istehsalı kənd təsərrüfatı məhsullarının

istehsalından fərqli olaraq, fərqli texnologiyalar əsasında gerçəkləşdirilir. Odur ki, qida sənayesi sektorunda rəqabətqabiliyyətliliyin təmin edilməsi üçün, ilk növbədə modern texnologiyaların tətbiq edilməsi vacibdir. Bu həm məhsulun keyfiyyətinin yüksəldilməsinə, həm də məhsul istehsalına çəkilən xərclərin aşağı salınmasına əlverişli şərait yarada bilər.

Kənd təsərrüfatı ilə emal sənayesi arasında inteqrasiya əlaqələrində bərabər tərəfdaşlığın təmin edilməsi də vacib şərtlərdən biridir. Emal sənayesi əksər hallarda kənd təsərrüfatı üzərində iqtisadi təyziq göstərərək kənd təsərrüfatında istehsal edilən məhsulun bu və ya digər şəkildə ucuz əldə edilməsinə cəhd göstərir. Odur ki, emal sənayesində inteqrasiya münasibətlərinin tənzimlənməsi də vacib şərtlərdən biridir. Emal sənayesinin inkişafı və modernləşdirilməsi üçün investisiya mənbəyi kimi xarici kapitalın cəlb edilməsi, dövlət kapitalizminin prinsiplərindən istifadə, aqrar sənaye resurslarına olan tələbatın ödənilməsində mühüm əhəmiyyət kəsb edə bilər [1, s. 85-86].

Müəllifin fikirlərindən belə qənaətə gəlmək olar ki, emal sənayesinin modernləşdirilməsi mahiyyət etibarilə həm daxili bazarda, həm də xarici bazarda qida məhsullarının ixrac həcminin genişlənməsinə əlverişli şərait yarada bilər ki, bu da ixracın və idxalın strukturunda zəruri keyfiyyət dəyişikliklərinin olmasına gətirib çıxara bilər. Emal sənayesi aqrar sahənin inkişafında əhəmiyyətli rol oynayan maddi-texniki resurslarla təchizatın formalaşdırılmasına da xidmət edir. Belə ki, kənd təsərrüfatı ilə emal sənayesi arasında inteqrasiya əlaqələri nəticəsində müqavilə şərtlərinə uyğun olaraq birincilər məhsulun dəyərini bir sıra hallarda pul formasında deyil, natura-texnika formasında əldə edirlər. Emal sənayesi müəssisələri kənd təsərrüfatının çoxfunksiyalılığının təmin olunmasında da mühüm rol oynayır. Belə ki, ölkənin regionlarında emal müəssisələrinin mövcudluğu kənd əhalisinin alternativ məşğulluğunun formalaşdırılmasına bilavasitə təsir göstərir. Bununla da kəndin sənayeləşdirilməsi istiqamətində mühüm addım atılmış olur. Bu isə öz növbəsində kənd əhalisinin gəlirlərinin artırılmasında, kəndin sosial inkişaf səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Emal sənayesinin mütərəqqi texnologiyalarla təmin edilməsi konkret regionun dünya bazarına rəqabət qabiliyyətli məhsul çıxarılmasını sürətləndirməklə, eyni zamanda milli aqrar iqtisadiyyatda idxalı əvəzetmə strategiyasının müvəffəqiyyətlə reallaşdırılmasına xidmət edir. Emal sənayesinin səmərəli fəaliyyəti kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəldilməsinə, müxtəlif mülkiyyət məhsullu təsərrüfatçılıq formalarının davamlı inkişafına əlverişli şərait yaradır [2, s 262,263].

Müəllifin fikirlərindən çıxış etsək belə qənaətə gəlmək olar ki, regionlarda emal sənayesinin azad rəqabət mühitində fəaliyyət göstərməsi, kənd təsərrüfatı əmtəə istehsalçılarına qarşı inhisarçılıq təmayüllərinin qarşısının alınmasında da önəmli rol oynaya bilər. Emal sənayesi müəssisələrinin çoxluğu ,əslində, məhsulun emalçılara verilməsi ilə bağlı kənd təsərrüfatı əmtəə istehsalçılarının fərqli seçim etmək imkanlarını özündə birləşdirir.

Aparılan araşdırmalar göstərir ki, qida sənayesi istehsalının özünəməxsus ekoloji və iqtisadi problemləri vardır. Bu problemlər əksər hallarda ətraf mühitə mənfi təsir göstərir və eyni zamanda istehsal edilən qida məhsullarının ekoloji təmizliyinin pozulmasına da gətirib çıxarır. Çoxsaylı elmi araşdırmalara görə ətraf mühitdə dövr edən zərərli maddələrin əsas hissəi məhz qida ilə birlikdə insan orqanizminə daxil olur. Şübhəsiz ki, qidanın tərkibi və toksik maddələrlə çirklənməsi insanların sağlamlığına mənfi təsir göstərir [3, s. 63].

Qeyd etmək lazımdır ki, qida sektorunda kifayət qədər mürəkkəb kimyəvi birləşmələrdən istifadə edilir və bu proses hazırda daha çox intensivləşmişdir. Belə ki, müxtəlif qida məhsullarının, o cümlədən süd məhsullarının, şərab məhsullarının və digərlərinin hazırlanmasında daha çox kənd təsərrüfatı xammalından istifadə edilmir, daha çox müxtəlif kimyəvi birləşmələrdən istifadə edilir və bu da insanların sağlamlığına öz mənfi təsirini göstərir. Qida sənayesinin və bütövlükdə qida məhsullarının istehsalı prosesinin ekoloji problemləri, təkcə istehsal edilən məhsulların ekoloji təmiz olmaması baxımından insanların sağlamlığına zərər vurması ilə yekunlaşmır. Qida məhsullarının istehsalı sektoru həm də ətraf mühitə, ekoloji proseslərə əhəmiyyətli dərəcədə mənfi təsir göstərmək imkanına malikdir.

Təsadüfi deyildir ki, qida sənayesi müəssisələrinin ətraf mühitə mənfi təsirinin intensivliyinə görə su ehtiyatları birinci yeri tutur. Məhsul vahidinə su sərfinə görə yeyinti sənayesi xalq təsərrüfatının digər sahələri içərisində ilk yerlərdən birini tutur. İstehlak səviyyəsinin yüksək olması

müəssisələrdə böyük həcmdə tullantı sularının olmasına gətirib çıxarır ki, bu da bir çox hallarda çirklənmə doğurur və ətraf mühit üçün təhlükə yaradır. Çirkab suların su hövzələrinə axıdılması oksigen ehtiyatlarını tez tükəndirir ki, bu da insanların sağlamlığına da mənfi təsir göstərir. Şəkər, nişasta, konserv məhsulları, şərab sənayesi müəssisələrində tullantı sularının əsas hissəsi xammalın hidronəqliyyatı və yuyulması zamanı əmələ gəlir. Bu, sənaye müəssisələrinin tullantı suları tərkibində asılı olan üzvi maddələrin yüksək olması ilə xarakterizə olunur[5].

Qida məhsullarının istehsalında ekoloji problemlər bir sıra hallarda qida təhlükəsizliyi səviyyəsinə də yüksəlir. Qida təhlükəsizliyi dedikdə həm kəskin mənfi təsirlər (qida zəhərlənməsi və daha zəhərli infeksiyaları), həm də fərdi nəticələr (konsorogen, mutagen və terotogen təsirlər) baxımından istehlak edildikdə insan sağlamlığı üçün təhlükənin olması başa düşülür. Ərzaq məhsullarının keyfiyyətinin formalaşdırılmasının əsas prinsipləri sırasında onların təhlükəsizliyini qeyd etmək lazımdır. İnsanların qidalanmasında məhsulun təyinatına uyğun qida dəyərinin təmin edilməsi də mühüm əhəmiyyətə malikdir. Görünüşü, orqanoliptik xüsusiyyətləri, qablaşdırılması, məhsulun keyfiyyəti və istifadə istiqamətində istehlakçının məlumatlı olması mühüm rol oynayır [4, s. 94-103]. Müəllifin fikirlərindən belə nəticəyə gəlmək olar ki, bütün hallarda qida məhsullarının keyfiyyətli xarakter daşıması onun təhlükəsizliyinin təmin edilməsində də əhəmiyyətli rola malikdir.

Yuxarıda qeyd etdiyimiz kimi, qida sənayesinin ekoloji problemləri ilə yanaşı, kifayət qədər iqtisadi problemləri də vardır. Qida məhsulları istehsalı daha çox sosial-iqtisadi xarakter daşıdığından, eləcə də insanların fiziki mövcudiyyatında qorunub saxlanılmasında və sosial rifah halının yaxşılışdırılmasında əhəmiyyətli rol oynadığından cəmiyyət üzvlərinin sağlam qidalara ehtiyacı aşkar görünür. Qlobal dünyada aclıq probleminin hələ də öz aktuallığını saxlaması bütövlükdə qidalanma prosesinin qloballaşmanın çağırışları kimi ortaya çıxmasına gətirib çıxarır. Qida məhsulları istehsalı aqrar ərzaq kompleksinin mühüm tərkib hissəsini təşkil etdiyindən qida məhsulları istehsalının iqtisadi problemləri əslində aqrar ərzaq kompleksinin iqtisadi problemlərindən də qidalanır. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı xammalının rəqabət qabiliyyətinin formalaşdırılması, aqrar ərzaq kompleksində zəruri institusional komplekslərin yaradılması, ərzaq bazarlarında sabitliyin təmin edilməsi ilə bağlı müxtəlif problemlərin olması qida sənayesi istehsalından da yan keçmir. Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə stabil ərzaq bazarları formalaşır və eləcə də kənd təsərrüfatı və emal sənayesi arasında inteqrasiya münasibətləri kifayət qədər prioritet əsaslarla qurulur. Bütün bunlar isə inkişaf etmiş ölkələrdə qida sənayesinin iqtisadi problemlərini əhəmiyyətli dərəcədə azaldır. İnkişaf etməkdə olan ölkələrdə isə qida sənayesinin özünəməxsus iqtisadi problemləri yaranır. Bu problemlər əsas etibarilə ərzaq bazarının özünütənzimləmə və dövlət tənzimlənməsi arasında prioritet əsasların olmamasından, eləcə də sənaye və istehlak tullantılarının təkrar emalı prosesinin mövcud olmamasından və s. bəhrələnir.

Hazırda dünyanın inkişaf etmiş ölkələri sağlam qida istehlakına daha çox üstünlük verirlər. Əhalinin sağlam qida istehlakının təmin edilməsi prosesi məhsulun qablaşdırılmasında da öz əksini tapır. Belə ki, dünyanın artıq əksər inkişaf etmiş ölkələrində sağlam seçim işarəsi ilə etiketlənmə həyata keçirilir. Hazırda Avropa Birliyinə daxil olan ölkələrdə, eyni zamanda Meksikada, Argentinada, Sinqapurda, Çində, Hindistanda və s. ölkələrdə 120-dən çox ekoloji baxımdan sağlam seçim imkanları verən məhsul təklif edilir.

Qida məhsulları istehsalında iqtisadi problemlərin kəskinləşməsinə “Covid-19” pandemiyasının da özünəməxsus təsirləri olmuşdur və bu pandemiya, xüsusilə qida məhsulları biznesində əhəmiyyətli dəyişikliklərin yaranmasına gətirib çıxardı. Belə ki, artıq qida məhsullarının satışı sektorunda onlayn sifariş və çatdırılma ilə bağlı rəqəmsal yanaşma prosesləri özünü büruzə verməyə başladı. Daim dəyişən istehlakçı vərdişləri rəqəmsal ticarəti ərzaq məhsullarının reallaşdırılmasında əsas satış kanalına çevirdi. Hətta mağazalarda alqı-satqı aktları belə rəqəmsal ticarət sistemi vasitəsilə reallaşdırılmağa başladı. Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirərək bu qənaətə gəlmək mümkündür ki, müasir şəraitdə qida sənayesinin istehsalında yaranan iqtisadi problemləri aşağıdakı kimi təsnifləşdirmək mümkündür:

– Qida məhsulları istehsalında xərclərin həcminin artması; qida sənayesinin xərclərinin artması ilə bağlı demək olar ki, ən yüksək xərclər nəqliyyat xərcləri hesab olunur. Bu baxımdan bir çox qida şirkətləri həmin problemlərin öhdəsindən gəlmək məqsədilə logistika proseslərini

avtomatlaşdırmağa məcbur olurlar;

– Qida sənayesi istehsalında tənzimləyici nəzarət şəbəkələrinin yaradılması; bütün bunlar logistika proseslərinin mürəkkəbliyi və artan xərclərin beynəlxalq ticarətin bir hissəsinə çevrilməsi baxımından özünü göstərir. Nəzarət sistemlərinin tətbiqi bir qayda olaraq transmilli şirkətlərdə həyata keçirilir və özünün daha yüksək səmərəli həddinə çatır;

– Təchizat zəncirinin pozulması; bütün bunlar qloballaşma prosesinin təzahürləri kimi də özünü büruzə verir. Belə ki, istehlakçı tələbləri və gözləntiləri bu və ya digər qida məhsullarının istehsalı ilə bağlı fəaliyyət göstərən transmilli şirkətləri öz təkliflərinin zəruri şaxələndirmə prosesinə məruz qoyur. Nəticədə, tədarük zəncirləri daha uzun və daha geniş xarakter daşıyır. Bu da məhsulların son istehlakçıya çatdırılmasına qədər müəyyən pozuntularla müşahidə olunur;

– İstehlakçıların tələbləri və onların gözləntiləri; bütün bunlar həm də zəruri alternativlərin seçilməsini, qablaşdırma ilə bağlı fərqli standartlara keçidi özündə əks etdirir.

Beləliklə, qida məhsulları istehsalının yuxarıda adıçəkilən ekoloji və iqtisadi problemlərinin həlli ərzaq təhlükəsizliyinin təmin edilməsinə və eləcə də qida sənayeçilərinin daxili və xarici bazarda möhkəmlənməsinə əlverişli şərait yarada bilər.

## ƏDƏBİYYAT


1. Ataşov. B. X. Aqrar sahədə struktur və səmərəlilik problemləri(Nəzəriyyə və Praktika), Bakı. 2017. 536 s.
2. Abbasov. A. F., Ərzaq Təhlükəsizliyi. Bakı. 2007. 602 s.
3. Белова С.М., От стандартизации и сертификации продуктов питания – к здоровью нации // стандарты икочестба, 1996, N3, с. 63-64
4. Григорьева Е. А. Обеспечение эколого-экономической безопасности и фактор экологического роста как повышения качества жизни населения Республики Татарстан./ Мат. Международной Научно-практической конференции “Современные проблемы безопасности жизнедеятельности”: теория и практика. Ч. 2. Казань, 2012.
5. https://ecoportal.su/public/industry/view/1665.html



***Новруз Амир оглы Рагимов***
***докторант Азербайджанского Университета Кооперации***


### Эколого-экономические проблемы производства продуктов питания


***Резюме***

Пищевая промышленность, являясь важнейшей составляющей агропродовольственного комплекса, играет важную роль в удовлетворении спроса населения на продукты питания. Одним из важнейших факторов производства продуктов питания является сельскохозяйственное сырье. В связи с этим защита стратегических экономических интересов государства в процессе производства продуктов питания, а точнее, обеспечение продовольственной безопасности страны, является одним из важных условий. Важнейшим аспектом, обуславливающим необходимость создания этих условий, является то, что процесс производства продуктов питания должен базироваться на местном сельскохозяйственном сырье.



***Novruz Amir oglu Rahimov***
***Doctoral student of Azerbaijan Cooperation University***


### Environmental and economic problems of food production


***Summary***

The food industry, being the most important component of the agricultural food complex, plays an important role in meeting the population's demand for food products. One of the most important factors for the production of food products is agricultural raw materials. In this regard, protection of the strategic economic interests of the state in the process of production of food products, or rather, provision of food security of the country, is one of the important conditions.